**G.Ş.Xudaverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***xguliyde@gmail.com***

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ İLƏ DƏRSDƏNKƏNAR LAYİHƏ FƏALİYYƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

***Xülasə***

*İbtidai sinif şagirdləri ilə dərsdənkənar layihə fəaliyyətinin təşkili xüsusiyyətləri, ibtidai sinif şagirdləri ilə dərsdənkənar layihə fəaliyyətinin məqsədi və vəzifələri, texnologiyası, müasir dövrdə onun imkanlarının tədqiqatı mühüm əhəmiyyət daşıyır.*

*Layihə fəaliyyətinin uğurlu təşkilində amil kimi layihə üzrə mərhələli işin rolunu müəyyən edilməsi, ibtidai sinif müəlliminin bu istiqamətdə rolu və mövqeyi tədqiq olunmuşdur. Mövzunun təhlili aparılaraq vacib nəticələr əldə edilmişdir.*

# ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ ОРГАНИЗАЦИОННОЙ ХАРАКТЕРИСТИКИ ВНЕУЧЕБНОЙ ПРОЕКТНОЙ ДЕЯТЕЛЬНОСТИ С УЧАЩИМСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Резюме***

*Особенности организации внеурочной проектной деятельности с младшими школьниками, цели и задачи внеурочной проектной деятельности с младшими школьниками, технология, изучение ее возможностей в современное время имеют большое значение.*

*Изучены определение роли поэтапной работы над проектом как фактора успешной организации проектной деятельности, роль и позиция учителя начальных классов в этом направлении. Важные результаты были получены при анализе темы.*

# THEORETİCAL İSSUES OF ORGANİZATİONAL CHARACTERİSTİCS OF EXTRA-CURRİCULAR PROJECT ACTİVİTY WİTH PRİMARY CLASS STUDENTS

***Summary***

*The characteristics of the organization of extracurricular project activities with elementary school students, the goals and tasks of extracurricular project activities with elementary school students, technology, and the research of its possibilities in modern times are of great importance. Determining the role of staged work on the project as a factor in the successful organization of the project activity,*

*the role and position of the primary school teacher in this direction were studied. By analyzing the topic important results were obtained.*

***Açar sözlər:*** *dərsdənkənar layihə, təhsil,ibtidai sinif, bilik, bacarıq, pedaqoji inkişaf, texnologiya*
***Ключевые слова:*** *внеклассный проект, образование, начальная школа, знания, умения, педагогическое развитие, технология*
***Key words:*** *extracurricular project, education, elementary school, knowledge, skills, pedagogical development, technology*

İbtidai sinif şagirdləri ilə dərsdənkənar layihə fəaliyyətinin təşkili xüsusiyyətlərinin vacibliyi, əhəmiyyəti və bu istiqamətdə atılan addımlar təşkil edir. İbtidai sinif müəlliminin şagirdlərin inkişafında dərsdənkənar layihə fəaliyyətinin məqsədi və vəzifələrinin müəyyənləşdirilməsi, onların bilik, bacarıq və qabiliyyətlərə yiyələnməsi, gələcək nəslin təhsilinin bünövrəsinin qoyulmasında rolu çox mühüm və əhəmiyyətlidir.

Müasir təhsil müəssisəsində gənclərin təhsili problemi ən aktual sosial problemlərdən biridir. Gənc tələbələrin təhsil mühitinə lazımi diqqət yetirilməməsi neqativ gənclik subkulturasının aktuallaşması təhlükəsi olan bir vəziyyət yaradır. Bu şəraitdə gənclərin dəyər yönümlərini ümumi humanist ideallara və milli mədəni ənənələrə uyğun olaraq korrektə etmək lazımdır.

Belə ki, layihələrin hazırlanması metodu müəyyən nəticələrə əsaslanan layihənin təqdim olunması və müdafiəsi yolu ilə şagirdlərin yaradıcı, məntiqi təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə zəmin yaradır. (3, səh.48)

Hər bir ibtidai sinif müəllimi təlim prosesində şagirdlərin idrak fəaliyyətini, onların intellektual hisslərini fəallaşdırmaq yolu ilə gücləndirməlidir. Bu, çox vacib mərhələdir. Bu cür fəallıq nəticə etibarı ilə yaradıcı təfəkkürün, ağılın inkişafına xidmət edəcəkdir.

Yeni pedaqoji təfəkkür, dünya təhsilinə inteqrasiya, təhsilin humanist-ləşdirilməsi, interaktiv təlim metodlarının geniş vüsət aldığı bir şəraitdə, şagird təfəkkürünün emosional cəhətdən, zehni hisslərin köməyi ilə fəallaşdırılması müasir dərsə verilən əsas psixopedaqoji tələbdir. Təfəkkür ilə hisslərin sinxron surətdə inkişaf etdirilməsi isə şəxsiyyətin yetişdirilməsinin ana xəttini təşkil edir. (6, səh.117)

İbtidai təhsil pilləsində tədris olunan fənlərin əsaslandırılması, fənlər üzrə ümumi təlim nəticələrinin mahiyyətini dərindən bilməklə onları əlaqələndirmək təhsil proqramının tələblərindəndir. Şagirdlərin ibtidai təhsil pilləsində texnologiyanın tədrisində bilik və fəaliyyətinin təmin edilməsinin tədqiqinə diqqət yönəltməyi məqsədəuyğun hesab edilir.

İbtidai təhsil pilləsində texnologiya fənninin əsaslandırılması vacibdir. Şagirdlərdə müqayisə və çeşidləmə, ilkin emal, özünəxidmət və birgəfəaliyyət

vərdişləri, sadə layihələndirmə, tərtibat, modelləşdirmə, dizayn, canlı təbiətə xidmət bacarıqları, ölçü, mütənasiblik, simmetriya və digər həndəsi anlayışlar formalaşdırılır, sadə konstruksiyalar və yaradıcı işlərin yerinə yetirilməsi üzrə qabiliyyətlərin aşılanması təmin olunur.

Layihənin məqsədi və xarakterini müəyyənləşdirmək, material seçmək, təhsil fəaliyyəti proqramının qurulması ilə əlaqəli təhsil fəaliyyətinin məqsədlərinin müəyyən edilməsi və strukturlaşdırılması mühümdür. (7, səh. 234)

Mövzu ümumilikdə layihə fəaliyyətinin uğurlu təşkilində amil kimi layihə üzrə mərhələli işin rolunu müəyyən etməkdir. Belə ki, ibtidai təhsil müəssisələrinin məzmununda, predmetində inkişaf özünü göstərir.

Belə ki, təlim-tərbiyə prosesində ibtidai sinif müəllim şəxsiyyətinin rolu, fəaliyyəti çox vacib şərtlərdəndir. Dərsdənkənar layihə fəaliyyətinin imkanları, əhəmiyyəti, pedaqoji fəaliyyət prosesində tətbiqi, ibtidai sinif şagirdləri ilə dərsdənkənar layihə fəaliyyətinin məqsədi və vəzifələri mühüm əhəmiyyətə malikdir.

Müasir təhsil müəssisəsində gənclərin təhsili problemi ən aktual sosial problemlərdən biridir. Gənc tələbələrin təhsil mühitinə lazımi diqqət yetirilməməsi neqativ gənclik subkulturasının aktuallaşması təhlükəsi olan bir vəziyyət yaradır. Bu şəraitdə gənclərin dəyər yönümlərini ümumi humanist ideallara və milli mədəni ənənələrə uyğun olaraq korrektə etmək lazımdır. Bu, yalnız təhsil müəssisəsinin pedaqoji cəhətdən tərbiyələndirici, inkişaf etdirici, təlim mühitinin yaradılması prosesində həyata keçirilə bilər.

XXI əsrdə elm və texnikanın sürətlə inkişaf etdiyi, insan fəaliyyətinin bütün sahələrində yeniləşmələrin baş verdiyi müasir dövrdə pedaqoji elmlər sistemində idarəetməyə yeni yanaşmalar meydana gəlməkdədir. Problemin pedaqoji, psixoloji və linqvistik aspekti araşdırılmış, kurikulum tələbləri baxımından yeni yanaşmalar, savad təlimi dövrünə dair dərs metodlarının tətbiqi və ibtidai siniflərdə dərsdənkənar fəaliyyət zamanı interaktiv üsulların effektivliyi qeyd edilmişdir.

Azərbaycanda ibtidai sinif pilləsində təhsilin həyata keçirilməsi ilə bağlı təhsil müəssisələrinin idarə sistemi yeni metodlara uyğunlaşmış, məqsəd və vəzifələri müəyyən edilmiş və problemlərin həll edilməsi yolları müəyyənləşdirilmişdir. Mövzunun elmi yeniliyi ibtidai siniflərdə dərsdənkənar fəaliyyətlərdə layihə metodundan istifadə etməklə şagirdlərin bilik və bacarıqlarının aşkar edilməsi və inkişaf etdirilməsi, bu bilik və bacarıqlardan səmərəli istifadə edilməsi və şagirdlərinin fərdi inkişafının təmin edilməsindən ibarətdir. İbtidai siniflərdə layihə metodundan istifadə edərək dərsdənkənar fəaliyyətlərlə məşğulluğu şagirdlərin vacib bacarıqlar formalaşmasına səbəb olur.

Dərsdənkənar məşğulluğun ibtidai siniflərdə tədbiqi zamanı istifadə edilən yeni fəaliyyət metodları şagirdlərin tədris edilən fənni daha effektiv qavramalarında, mənimsəmələrində mühüm əhəmiyyət kəsb edir. Dərsdənkənar fəaliyyətlərin şagirdlərin bilik və səriştələrini inkişaf etdirməsi, o cümlədən, onların məhsuldar bir fərd olaraq yetişməsi, nəzəri biliklərin mənimsədilməsi elmi cəhətdən əsaslandırılmışdır.

Mövzunun elmi yeniliyi ibtidai siniflərdə şagirdlərin fərdi ikişafı zamanı yeni interaktiv üsullardan istifadə etməklə şagirdlərdə bacarıqların daha səmərəli üsulla həyata keçirməsindən ibarətdir. İbtidai siniflərdə tədris prosesində pedaqoji prosesə nəticəyönümlü yanaşılması ibtidai sinif şagirdlərinin vacib həyati bacarıqlar formalaşmasına zəmin yaradır. Bu bacarıqlar şagirdlərin qabiliyyət və bacarıqlarında, ünsiyyət və davranışında özünü göstərdiyindən buna nail olmaq üçün idarəetmə mexaniziminin nəticəyönümlülüyünün təmin edilməsi çox vacib məsələlərdəndir.

Şagirdlərin öz maraq dairələrinə uyğun dərsdənkənar fəaliyyətlərlə məşğul olmağı və bu fəaliyyətlərdə yeni təlim metodlarından istifadə etmək dərsi daha da zənginləşdirir.

Dərsdənkənar layihə fəaliyyətin əsas, önəmli təsir obyektinə çevrilməsi, müəllimin fəaliyyəti zamanı bu metoddan istifadəsi şagirdlərin həyatına böyük təsir göstərir.

Bu iş gənc müəllimlər, pedaqoqlar üçün əhəmiyyətlidir. Dissertasiya işi dərsdənkənar layihə fəaliyyətinin imkanları, ibtidai sinif müəllimlərinin pedaqoji-tərbiyəvi fəaliyyət prosesində layihədən səmərəli istifadəsindən, kiçikyaşlı şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnmələri prosesində müsbət nəticə verməsindən bəhs edir.

Problemin mahiyyətini geniş şəkildə aydınlaşdırmağa, hər şeydən əvvəl, dünya elmində onun sistemini ciddi şəkildə öyrənməyə ehtiyac yaranır. Son illərdə təhsildə, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin məzmununda böyük dəyişikliklər gedir.

Aparılan işlərin düzgün istiqamətləndirilməsi üçün bir çox yeni sənədlər toplusu işlənilir. İşlənmiş və bu istiqamətdə mühüm işlər həyata keçirilmişdir.

Fəal təlim prinsiplərinə istinad edən yeni metodların, interaktiv texnikaların tətbiqi ön plana çəkilmiş, həmçinin səmərəli və məhsuldar metod məsələləri vurğulanmışdır.

***Ədəbiyyat***

1. *Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı: Renessans, 2000, 202s.*
2. *İlyasov M. “Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri” monoqrafiya.*

3. *Musayev İ.V. Müəllimin və sinif rəhbərinin peşə fəaliyyətinin xüsusiyyətləri. Pedaqoji universitet və institut tələbələri üçün dərs vəsaiti. Bakı: ADPU, 1996, 132 s.*
4. *Müəllimin pedaqoji qabiliyyətləri. https://aztehsil.com/news/6795-müəllimin-pedaqoji-qabiliyyətləri.html*
5. *N. Kazımov "Məktəb pedaqogikası" Bakı 2009.*
6. *Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007, 464 s.*
7. *Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik. Bakı: Nurlan, 2007, 568 s.*